İDEAL PRİNT

BAKI – 2008

# Prezident
# İlham Əliyev
## və mədəniyyət
## 2003
## 2008

# PREZİDENT
# İLHAM ƏLİYEV
# VƏ MƏDƏNİYYƏT

İKİ CİLDDƏ

İKİNCİ CİLD

2003-2008

# Prezìdent İlham Əlìyev və Mədənìyyət

- Təbrìklər
- Qanunlar
- Fərmanlar
- Sərəncamlar

**Azərbaycan Respublikası**
**Mədəniyyət və Turizm Nazirliyi**

| | |
|---|---|
| Layihənin rəhbəri və baş məsləhətçi: | **ƏBÜLFƏS QARAYEV** |
| Buraxılışa məsul: | **Teymur MEHDİYEV**<br>**Sevda MƏMMƏDƏLİYEVA**<br>**Ədalət VƏLİYEV** |
| Tərtibçilər: | **Lətifə MƏMMƏDOVA**<br>**Mayıl ƏHMƏDOV** |
| Elmi məsləhətçilər: | **Teymur ƏHMƏDOV**<br>**Əli EYVAZOV** |

P74 **PREZİDENT İLHAM ƏLİYEV VƏ MƏDƏNİYYƏT.**
2 cilddə (II cild), Bakı, **"İDEAL-PRİNT"**, 2008, səh. - 568.

**İSBN 978995244701**

9 789952 447019

P $\frac{4702060200}{122}$

**© Azərbaycan Respublikası**
**Mədəniyyət və Turizm Nazirliyi, 2008**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MƏDƏNİYYƏT, ƏDƏBİYYAT, TARİXİ-MƏDƏNİ İRS VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR HAQQINDA

Müstəqillik illərində Azərbaycan xalqının mənəvi potensialı daha da zənginləşmiş, milli mədəniyyət və incəsənət ideoloji buxovlardan azad olaraq azərbaycançılıq məfkurəsi əsasında inkişaf etmişdir.

Dövlət Azərbaycanın mədəni həyatının daha da inkişafı üçün öz işini davam etdirəcəkdir.

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev bizə azərbaycançılıq kimi dərin bir fəlsəfi konsepsiyanı bəxş edərək, Azərbaycan dilini, Azərbaycan tarixini, Azərbaycan mədəniyyətini və milli-mənəvi dəyərlərimizi qorumağı dönə-dönə tövsiyə etmişdir.

Azərbaycan xalqının, bizim hamımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün, əlbəttə ki, ədəbiyyatımızın, mədəniyyətimizin böyük rolu olmuşdur.

Azərbaycan yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra səmərəli dövlətçilik konsepsiyası, iqtisadiyyatın dirçəlişi strategiyası və azərbaycançılıq fəlsəfəsinin əsaslarına uyğun olaraq demokratik keçid yoluna qədəm qoydu.

Azərbaycan xalqımızın ümummilli lideri Heydər Əliyevin mədəniyyət, incəsənət, elm xadimlərinə diqqəti daim yüksək olubdur.

Qloballaşan dünyada Azərbaycan Respublikası və azərbaycanlılar özünün maddi-mənəvi və intellektual potensialına uyğun layiqli yer tutacaqlar.

Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir.

Ölkəmiz qədim dövrlərdən başlayaraq, öz yüksək kitab mədəniyyəti ilə seçilmiş və zəngin kitabxanaları ilə tanınmışdır.

Müsəlman Şərqi aləmində ilk dünyəvi teatrın, ilk kinonun və ilk operanın yaradıcısı olan Azərbaycan xalqı mədəniyyətinin yeni yüksəliş mərhələsini yaşayır.

Muğam Azərbaycan xalqının mədəni-mənəvi irsinin möhtəşəm abidəsidir. Azərbaycan musiqisini zəngin fəlsəfi və ədəbi zəmində təşəkkül tapmış muğamsız təsəvvür etmək mümkün deyildir.

Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilməsi bütövlükdə onun nə dərəcədə unikal sənət növü olduğunu təsdiq edir.

Xalqımızın milli sərvəti olan İçərişəhər Azərbaycanda hələ yüzillər bundan əvvəlki şəhərsalma sənətinin əzəmətli təzahürüdür. Burada ucaldılmış Qız qalası, qala divarları və Şirvanşahlar sarayı kompleksinin şöhrəti dünyaya yayılmışdır.

Müstəqil Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrində aparılan islahatlar içərisində latın qrafikalı Azərbaycan əlifbasının bərpa edilməsi böyük tarixi əhəmiyyət kəsb edir.

Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri olaraq qalır.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə yeni dövrün tələblərinə cavab verən, xalqımızın həyatında baş vermiş mühüm ictimai-siyasi, tarixi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirən yeni ensiklopediyanın hazırlanıb latın qrafikasında nəşr edilməsi zərurəti meydana çıxmışdır.

Klassik ədəbiyyat nümunələri ilə üzvi surətdə vəhdət təşkil edərək, sintetik sənət növü kimi meydana çıxan muğamların Azərbaycan musiqisinin inkişafında rolu böyükdür.

Görkəmli yazıçı Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə fəaliyyətə başlayan "Molla Nəsrəddin" xüsusi ədəbi məktəb yaratmış, milli mətbuatımızın inkişafının qızıl səhifələrini yazmışdır.

Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir. Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında bütövlükdə yeni mərhələ olmuşdur.

Süleyman Rüstəmin adı Azərbaycan ədəbiyyatına poeziyamızın klassik ənənələrinin parlaq davamçısı və bu ənənələri novator axtarışları ilə zənginləşdirən sənətkar kimi əbədi daxil olmuşdur.

Azərbaycan memarlıq sənətinin bir çox qiymətli nümunələri dünya memarlığının inciləri sırasına daxil olmuşdur. Ölkəmizin paytaxtı Bakı şəhərindəki qədim memarlıq abidələri isə mədəniyyətimizin və tariximizin rəmzlərinə çevrilmişdir.

Azərbaycan paytaxtının ümumi mənzərəsinin daha da kamilləşməsində milli memarlıq məktəbinin tanınmış nümayəndələrindən Zivərbəy Əhmədbəyov, Mikayıl Hüseynov və başqalarının böyük xidməti olmuşdur.

Milli teatr sənətimizin inkişafında mühüm yer tutan İrəvan Dövlət Azərbaycan Dram Teatrı Qafqazın qocaman sənət ocaqlarından biridir. 1882-ci ilin əvvəllərində azərbaycanlılardan ibarət teatr truppasının göstərdiyi tamaşa ilə fəaliyyətə başlamış bu mədəni mərkəz teatr tariximizə parlaq səhifələr yazmışdır.

XIX əsrin ortalarında milli məktəbin, milli mətbuatın və milli teatrın təşəkkülü mədəniyyətimizi daha da zənginləşdirmiş, mənəvi və vətənpərvərlik hisslərini gücləndirmişdir.

XIX əsrin ikinci yarısından etibarən cərəyan edən ictimai-siyasi hadisələr fonunda və maarifçilik hərəkatının güclü təsiri nəticəsində böyük mütəfəkkir Mirzə Fətəli Axundovun ədəbiyyatımıza yeni dram janrını gətirməsi ilə Azərbaycan teatrı müsəlman Şərqində ilk dünyəvi peşəkar teatr sənətinin ocağına çevrilmişdir.

Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Hüseynqulu Sarabski, Abbas Mirzə

Şərifzadə, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Ülvi Rəcəb kimi fitri istedad sahiblərinin səyləri ilə ölkəmizdə milli peşəkar aktyorlar məktəbi formalaşmışdır.

XX əsr boyu opera və balet, musiqili komediya, gənc tamaşaçılar teatrları, pantomima və digər teatrlar yaradılmışdır.

Yüksək səhnə mədəniyyəti ilə seçilən Azərbaycan teatrının zəngin repertuarı sayəsində xalqımız milli ədəbiyyatın parlaq nümunələri ilə yanaşı, dünya ədəbi fikrinin inciləri ilə daha yaxından tanış olmaq imkanı əldə etmişdir.

Azərbaycan teatr şəbəkəsinə daxil olan dörd dövlət dram teatrı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı dəstələrinin işğalına məruz qalaraq, ata-baba yurdlarından didərgin düşməsinə baxmayaraq, öz fəaliyyətini davam etdirir.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə qarşısında geniş üfüqlər açılan milli teatr bu gün dövlətçilik naminə mədəniyyətimizin inkişafına töhfələr vermək iqtidarındadır.

Azərbaycanda kino sənəti bir əsrdən artıq dövr ərzində əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır.

XX əsrin ilk onilliklərindəki Azərbaycan kinosu xalq adət-ənənələri və məişətinin dolğun təsvir olunduğu “Neft və milyonlar səltənətində”, “Arşın mal alan” kimi ilk bədii filmlərlə xüsusən yadda qalmışdır.

Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır.

Ölkəmizdə muzey işi qədim dövrlərdən başlayaraq özünəməxsus yol keçmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi respublikamızda muzeylərin inkişafına ağır zərbə vurmuşdur. Erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalan ərazilərimizdəki tarix-memarlıq abidələri, xatirə-memorial

komplekslər və muzey-qoruqlar dağıdılmış, muzey fondlarında mühafizə olunan qiymətli eksponatlar və sənət yadigarları bütünlüklə qarət edilmişdir.

Respublikanın artan iqtisadi potensialı əsasında yüksək inkişaf tempinə uyğun olaraq, mədəniyyət sahəsində ardıcıl mühüm işlər aparılır, bir sıra mədəniyyət ocaqları yaradılır, mövcud mərkəzlər üçün isə yeni binalar inşa olunur.

Ölkəmizin müxtəlif guşələrində ucaldılan monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri bu gün artıq şəhər və kəndlərimizin görkəminin ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycanda ilk elementləri Qobustan qaya təsvirlərində öz əksini tapmış heykəltəraşlığın qədim tarixi vardır.

Azərbaycan mədəniyyəti tarixinə milli və Avropa vokal məktəbi ənənələrinin uğurlu sintezinin yaradıcısı kimi daxil olmuş Bülbülün dünya klassiklərinin və Azərbaycan bəstəkarlarının opera əsərlərində oynadığı partiyalar, ifa etdiyi muğam və xalq mahnıları Azərbaycan musiqisinin qızıl fondunu təşkil edir.

Ədəbi fikir tariximizə yenilikçi şair kimi daxil olmuş Müşfiq dövrün yüksək bədii dəyərə malik, romantik ruhlu və dərin ictimai məzmunlu zəngin poeziyasını yaratmışdır.

Almas İldırımın yaradıcılığı Azərbaycan mühacirət poeziyasının bənzərsiz səhifələrindən birini təşkil edir.

Öz qaynağını milli mədəniyyətin ən dərin qatlarından alan Hüseyn Cavid yaradıcılığı Şərqin estetik fikir tarixi və dünya romantizm ənənələri ilə sıx bağlı olmuşdur.

Milli bədii düşüncə tarixini mövzu baxımından və bir-birindən parlaq xarakterlərlə zənginləşdirən Hüseyn Cavid sənətkar şəxsiyyətinin bütövlüyünü nümayiş etdirən ibrətamiz həyat yolu keçmişdir.

Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır.

XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının güclənməsi, neft sənayesinin görünməmiş yüksəlişi və ictimai-siyasi həyatda baş verən dəyişikliklər ölkəmizin elm-mədəniyyət mərkəzi kimi tanınan şəhərlərində kitabxanalar şəbəkəsinin yaradılması və genişləndirilməsinə gətirib çıxarmışdır.

Bu gün geniş kitabxana-informasiya şəbəkəsinə malik Azərbaycanda 12 mindən çox müxtəlif tipli kitabxana mövcuddur.

Son üç il ərzində ümumi sayı doqquz milyona yaxın ədəbiyyat nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Müasir Azərbaycan cəmiyyətinin informasiya təminatının həyata keçirilməsində ölkə kitabxanalarının tutduğu mühüm yer mədəniyyətin bu sahəsində informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, müasir texnologiyaların tətbiqini zəruri edir.

Azərbaycanda unikal təbii abidələrdən biri Abşeron rayonunun Məmmədli kəndində yerləşən "Yanar dağ"dır.

Tofiq Quliyevin yaradıcılığı XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Onun mahnıları və kino musiqiləri, estrada pyesləri və operettaları musiqi xəzinəmizin qızıl fonduna daxil olmuşdur.

Qobustan Azərbaycan xalqının milli sərvətidir. Qobustan dövlət tarixi-bədii qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanmışdır.

Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir.

İnsanların məbəd kimi qəbul etdiyi yerlərdən biri də Bakı şəhəri Suraxanı rayonunda indiki Atəşgah məbədinin ərazisi olmuşdur.

Qədim tarixə malik, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən Xınalıq kəndi özünəməxsus coğrafi mövqeyə və unikal memarlıq görkəminə malikdir.

Ağstafa rayonunda yerləşən Keşikçidağ mağaralar kompleksi də təkraredilməz relyefə, təbiətə malik və çoxsaylı arxeoloji abidələrlə zəngin olan mədəni-tarixi ərazidir.

Qara Qarayevin yaradıcılığı Azərbaycan musiqi sənəti tarixinin parlaq səhifələrini təşkil edir. Klassik və müasir musiqinin uğurlu sintezini yaradaraq mədəniyyətimizin inkişafına dəyərli töhfələr vermiş bəstəkarın müxtəlif janrlı əsərləri XX əsr dünya musiqi mədəniyyəti xəzinəsinə daxil olmuşdur.

Qədim və zəngin tarixə malik Azərbaycan idmanı xalq mədəniyyətinin ayrılmaz hissəsini təşkil edərək, milli-mədəni irsimizin çox sayda abidələrində öz əksini tapmışdır.

Azərbaycan teatrı salnaməsinə parlaq səhifələr yazan Naxçıvan Dövlət Musiqili Dram Teatrı zəngin sənət ənənələrinə malikdir.

Naxçıvan Dövlət Musiqili Dram Teatrı bütün fəaliyyəti boyu maarifçilik düşüncəsinin daha geniş dairədə yayılmasına çalışmış, xalqın mədəni intibahı, milli oyanışı və gənclərin milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyəsi işinə layiqli töhfələr vermişdir.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" əsərinin 1908-ci ildə birinci tamaşası milli musiqi mədəniyyəti tarixində yeni dövr açmışdır.

Muğamla Avropa operasının üzvi vəhdəti əsasında yaradılan "Leyli və Məcnun" Azərbaycan musiqisinin həqiqi ensiklopediyasıdır. Müsəlman Şərqində opera janrının əsası da muğam operasının bu ilk nümunəsi ilə qoyulmuşdur.

Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin adı Azərbaycan boyakarlıq sənəti tarixinə mənzərə janrının yaradıcılarından biri kimi həmişəlik həkk olunmuşdur.

XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır.

Tanınmış geoloq alim, 1939-1941-ci illərdə indiki Azərbaycan Dövlət Neft Akademiyasının rektoru, 1950-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasının prezidenti olmuş akademik Musa Əliyev ölkəmizdə elmin inkişafı naminə müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan xalqının zəngin tarixi-mədəni irsinin qorunub saxlanılmasında, tədqiqi və təbliğində Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin xüsusi xidmətləri vardır.

Arif Məlikovun yaradıcılığı müasir Azərbaycan musiqi mədəniyyətinin parlaq səhifələrindəndir.

Tahir Salahov parlaq ənənələrə malik müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindəndir.

Azərbaycançılıq ideyasının birləşdirici dəyər kimi bütün dünyada yaşayan azərbaycanlılar arasında yayılması, dilimizin, mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin, tariximizin yaşadılması və inkişaf etdirilməsi Prezident Heydər Əliyevin ideyası idi.

Ulu Tanrının islamı bir din olaraq tamamladığı bu əziz gün insanları saflığa, qardaşlığa və yüksək mənəviyyata çağıran ilahi hikmət rəmzi kimi bütün dünya müsəlmanları tərəfindən geniş qeyd olunur.

Mübarək Qurban bayramının ölkəmizdə də təntənəli şəkildə qeyd edilməsi Azərbaycan xalqının öz milli-mənəvi dəyərlərinə, dini ənənələrinə sadiq olduğunu əyani şəkildə özündə təcəssüm etdirir.

Azərbaycan qadınları tarix boyu xalqımızın taleyində əhəmiyyətli rol oynamışlar. Azərbaycanın müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarının adları çoxəsrlik zəngin tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Azərbaycanın müstəqillik əldə etməsindən sonra Novruz bayramı döv-

lət səviyyəsində qeyd olunmağa başladı ki, bu da tarixi köklərə qayıdışın, milli-mənəvi dəyərlərə qayğının güclənməsini şərtləndirdi.

Sürətlə qloballaşan dünyada mədəni inteqrasiya proseslərinin geniş vüsət aldığı bir dövrdə "Şərq-Qərb" kinofestivalının keçirilməsi təqdirəlayiq hadisədir.

130 ilə yaxın tarixi olan Azərbaycan milli mətbuatının zəngin və şərəfli ənənələri vardır.

XX əsrin sonlarında yenidən öz dövlət müstəqilliyini qazanmış ölkəmizdə milli dövlət ideyalarının və ənənələrinin möhkəmlənməsində, demokratik dəyərlərin bərqərar olmasında, beynəlxalq aləmdə Azərbaycanın rolunun və nüfuzunun güclənməsində mətbuatımızın xidmətləri xüsusi qeyd edilməlidir.

Öz dini-mənəvi dəyərlərinə tarixən həmişə sadiq qalan xalqımız bütün müsəlmanların birlik duyğusunu qoruyub saxlayan mübarək Ramazan bayramını xüsusi təntənə ilə qarşılayır.

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, ilk növbədə, öz milli kimliklərini hifz etməli, xalqımızın dilini, mədəniyyətini, mütərəqqi adət-ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidir. Bu, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin mühüm şərtidir.

Tariximizə dahi şəxsiyyətlər bəxş etmiş Azərbaycan qadınının gözəlliyini, onun mənəvi saflığını, mərdliyini və sədaqətini görkəmli sənətkarlarımız öz əsərlərində dönə-dönə tərənnüm etmişlər.

Ulu əcdadlarımızdan bizə yadigar qalmış bu bayram xalqımızın ən qədim ənənələrindən qaynaqlanıb zəngin milli-mənəvi dəyərlərimizi özündə təcəssüm etdirir.

Azərbaycan xalqı öz böyük və şərəfli tarixi boyu həmişə Uca Tanrıya tapınmış, milli köklərinə, dini-mənəvi ənənələrinə daim sadiq olmuşdur.

Müstəqillik illərində mütərəqqi islami dəyərlərə qayıdış cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişində xalqımızın bütövlüyü və birliyində misilsiz rol oynayan amillərdəndir.

Azərbaycanlıların milli-mənəvi dəyərlərinin, mütərəqqi ənənələrinin qorunub saxlanması və təbliğ edilməsi, mədəniyyət mərkəzlərinin yaradılması və səmərəli fəaliyyəti üçün məqsədyönlü və müntəzəm tədbirlər həyata keçirilməlidir.

Azərbaycanda tarixən ayrı-ayrı dinlər qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində mövcud olmuş və bu gün də dinc yanaşı fəaliyyət göstərməkdədir.

Azərbaycan xalqı uzun illər yad ideologiya və rejimlərin qadağaları şəraitində yaşamalı olsa da, heç vaxt tarixi köklərindən ayrı düşməmiş, milli adət-ənənələrini, dini etiqadını, inanc və mərasimlərini günümüzəcən qoruyub saxlamışdır.

Azərbaycanın mətbuat tarixində özünəməxsus dəst-xətti və mövqeyi ilə seçilən "Bakinski raboçi" qəzeti bütün dövrlərdə xalqımızın milli dəyərlərini həm ölkə daxilində, həm də beynəlxalq aləmdə yüksək səviyyədə təbliğ etmişdir.

Öz tarixi köklərinə, milli-mənəvi dəyərlərinə sadiq olan xalqımız hər il Qurban bayramını böyük təntənə ilə qeyd edir.

Ülvilik, zəriflik və gözəllik rəmzi olan qadın adı ölkəmizdə hər zaman uca tutulmuşdur. Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan xalqı böyük milli-mənəvi gücə malik Novruz bayramını həmişə uca tutaraq tarixinin ən çətin, ən mürəkkəb dövrlərində belə yad təsirlərdən qorumuş, ürəklərdə, yaddaşlarda daim ümidlə yaşatmışdır.

Müasir mərhələdə milli azlıqların dil və mədəniyyətinin inkişafı, etnik-mədəni müxtəlifliyin, tarixi-mənəvi irsin qorunub saxlanması Azərbaycan hökumətinin xüsusi diqqət və qayğıyla yanaşdığı məsələlərdəndir.

Xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, milli-dini tolerantlığın hökm sürdüyü Azərbaycan cəmiyyəti. bizim tarixi nailiyyətimizdir.

Xalqımız tarixi boyu həmişə Uca Tanrıya tapınmış, milli köklərinə, dini-mənəvi ənənələrinə daim sadiq olmuşdur.

Müstəqillik illərində mütərəqqi islamı dəyərlərə qayıdış cəmiyyətimizin

əxlaqi-mənəvi yüksəlişinə, xalqımızın bütövlüyü və birliyinə xidmət göstərmişdir.

Azərbaycan övladlarının yüksək vətənpərvərliyi, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi uğrunda sarsılmaz mübarizə əzmi də məhz belə milli-mənəvi dəyərlərə sadiqliyin nümunəsidir.

Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizi, ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadan, eyni zamanda, ümumbəşəri ideyaları mənimsəyərək, dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan nəsil yetişmişdir.

Milli-mənəvi dəyərlərə sadiqlik, onlara olan hörmət mütləq davam etməlidir.

Xalqımıza məxsus zəngin milli-mədəni dəyərlərin əsrlər boyu qorunub saxlanmasında və yaşadılmasında Azərbaycan qadınının misilsiz xidmətləri vardır.

Novruz bayramı, sözün əsl mənasında, ümumxalq bayramı mahiyyəti qazanmışdır.

Mədəniyyətlərarası dialoq sahəsində zəngin təcrübəyə malik olan və yüksək tolerantlığı ilə seçilən ölkəmizdə qadınlar daim cəmiyyəti düşündürən problemlərin həlli istiqamətində nəzərəçarpacaq xidmətilər göstərmişlər.

"Kitabi-Dədə Qorqud"dakı ideyalar və fikirlər bugünkü nəsil üçün də əhəmiyyət kəsb edir və mən əminəm ki, hələ bir neçə əsrlər boyu öz aktuallığını saxlayacaqdır.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının yaratdığı incilərdən biridir. Onun Azərbaycan xalqı və bütün Türk dünyası üçün qədim tarixi və böyük mənası var.

Gəncə bizim qədim şəhərimizdir, Azərbaycanın tarixidir.

Latın qrafikası ilə çapdan çıxmış yeni kitablar ölkəmizin gənc nəslinin yetişməsində mühüm rol oynayacaqdır.

Bizim mədəniyyət ocaqlarımız yüksək səviyyədə olmalıdır.

Mədəniyyət, incəsənət sahəsinə diqqət daim yüksək olacaqdır.

Yazıçılara, rəssamlara, ümumiyyətlə, mədəniyyət xadimlərinə həm maddi, həm də mənəvi baxımdan həmişə diqqət olubdur.

İndi Azərbaycanda abadlıq, quruculuq işləri gedir. Mədəniyyətə xüsusi diqqət göstərilir.

Novruz bayramı Azərbaycan xalqının qəlbində həmişə yaşamışdır. Azərbaycan xalqı bu bayramı əsrlər boyu yaşatmışdır.

Nizami təkcə şair, müdrik söz ustadı deyildi, həm də gözəl filosof idi. Onun əsərləri dünyanın azad fikir xəzinəsini layiqincə zənginləşdirmiş və bütün Şərq xalqlarını bəşəriyyətin firavanlığı naminə yaxşı, xeyirxah işlərə ruhlandırmışdır.

Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin dahiyanə əsərləri dünya mədəniyyətinin qızıl fondunun ən parlaq nümunələrini təşkil edir və bəşəriyyətin böyük nümayəndələrinin yaratdıqları əbədiyaşar abidələr sırasında fəxri yer tutur.

Nizami bu gün də müasirimiz olaraq qalır. O, özünün ölməz humanist ideyaları ilə bəşəriyyətin işıqlı gələcəyinin qurulmasında iştirak edir.

Məhz Azərbaycanın zəngin tarixi, mədəniyyəti, Azərbaycan dili bizi - Azərbaycan xalqının nümayəndələrini bu gün də öz keçmişimizə hörmətlə yanaşmağımıza imkan verir.

Azərbaycan müstəqil dövlət kimi inkişaf etdikcə, biz heç vaxt öz milli köklərimizi unutmamalıyıq.

Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxslərin xatirəsinə həmişə hörmətlə yanaşmalıyıq, onları həmişə ehtiramla yad etməliyik.

Öz keçmişini bilməyən, dərk etməyən, düzgün başa düşməyən insanın gələcəyi də ola bilməz.

Turizm infrastrukturunu inkişaf etdirmək üçün ilk növbədə informasiya gərəkdir.

İndi dünyanın müxtəlif ölkələrində, o cümlədən də bizdə turizmin infrastrukturunun inkişafına böyük əhəmiyyət verilir.

Azərbaycanın qabaqcıl mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin fəaliyyəti yüksək qiymətləndirilməlidir.

Kitablarımızın latın qrafikası ilə çap olunmasına qısa müddət ərzində nail olduq. Əlbəttə, bu, böyük hadisədir.

Azərbaycanın incəsənəti, rəssamlıq məktəbi çox zəngindir, çox dərin köklərə əsaslanır və eyni zamanda, indi artıq gənc nəsil də öz yerini tutmaqdadır.

Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır - alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır.

Azərbaycan cəmiyyətində həmişə ziyalılara böyük hörmət olubdur. Onların sözünə, əsərlərinə böyük maraq, tələbat olubdur.

Bizi bir millət kimi assimilyasiyadan qoruyan mədəniyyətimiz, dilimiz, musiqimiz və əsərlərimiz olubdur.

Slava Rostropoviç böyük musiqiçi, böyük vətənpərvər, böyük humanistdir. O, ən ağır anlarda belə öz prinsiplərinə sadiq qalmış, həmişə haqq-ədalət uğrunda mübarizə aparmış insandır.

Kukla teatrının binası da öz memarlığı ilə fərqlənir. Burada işləyən aktyorlar üçün də, tamaşaçılar üçün də yaxşı şərait yaradılmışdır.

Muğam bizim milli sərvətimizdir. Azərbaycan xalqının sərvətidir.

İndi Azərbaycanın musiqi sənətində müxtəlif janrlarda ulduzlar var.

Xalçaçılıq sənəti Azərbaycan mədəniyyətinin bir hissəsidir.

Qədim dövrlərdən xalçaçılıq sənəti Azərbaycanda yaşayır və inkişaf edir. Azərbaycanda birinci xalçalar eramızdan əvvəl toxunmuşdur.

Azərbaycan xalçası öz gözəlliyi, keyfiyyəti ilə həmişə seçilmişdir.

Xalçaçılıq xalq sənətidir.

Azərbaycan xalçaları dünyanın ən məşhur muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır və nümayiş etdirilir.

Xalçaçılıq sənəti hər bir azərbaycanlı üçün çox doğma, əziz sənətdir və hər bir azərbaycanlı öz həyatını xalçasız təsəvvür edə bilmir.

Biz Azərbaycanda mədəni irsimizin qorunmasına, tarixi abidələrin qorunmasına çox böyük əhəmiyyət veririk.

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində xalqımıza məxsus olan bütün tarixi abidələr dağıdılmışdır. Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti, eyni zamanda, bizim tarixi abidələrimizə də böyük ziyan vurmuşdur.

Üzeyir bəyin ölməz, unudulmaz əsərləri Azərbaycan xalqının qəlbində yaşayır və əbədi yaşayacaqdır.

Üzeyir Hacıbəyli Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biridir.

Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik.

Bakı Musiqi Akademiyası həm mədəniyyət ocağı, həm də təhsil ocağıdır.

Doğma Bakımızın siması dəyişir, bütün tarixi binalar təmir olunur.

Bizim xalqımız çox istedadlı xalqdır və onun imkanları olmalıdır ki, öz istedadını, öz potensialını bütün dünyaya çatdıra bilsin.

Xalqımızın öz ənənələri var, Vətəndən nə qədər uzaqlarda olsalar da, Vətəndə uzun müddət olmasalar da onların öz evinə, doğma torpağına, doğma şəhərinə, rayonuna məhəbbəti qəlblərində həmişə yaşayır.

"Dahi Nizaminin əsərləri ölməzdir, dəyərlidir və bütün nəsillər üçün əhəmiyyətlidir. Bu əsərlər bizim üçün və gələcək nəsillər üçün daim ilham mənbəyi olacaqdır".

"...ensiklopediya Azərbaycan tarixini, Azərbaycanın bu gününü və ümumiyyətlə, Azərbaycanda bütün əsrlər boyu baş vermiş hadisələri oxuculara açıq-aydın, qərəzsiz, təhrifsiz çatdırmalıdır. Bu, özümüz üçün də, Azərbaycan xalqı üçün də lazımdır, eyni zamanda dünya üçün də lazımdır".

...Kitabların latın əlifbası ilə nəşri üçün tədbirlər görülür. Azərbaycan Milli Ensiklopediyasının hazırlanması və nəşri haqqında qərarlar verilibdir. Bu, bizim tariximiz üçün, gələcək üçün çox mühüm, önəmli addımlardır.

Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasiyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır.

Biz indi daha çox iqtisadi uğurlardan danışırıq və hər bir dövlətin, hökumətin fəaliyyəti müəyyən meyarlarla ölçülür: iqtisadi artım, siyasi məsələlərin həlli, təhlükəsizlik məsələlərinin təşkil olunması. Ancaq bununla bərabər, hər bir ölkənin mənəvi, mədəni həyatı da ölkənin səviyyəsini göstərir.

Biz öz tariximizə sözdə yox, əməldə çox böyük hörmətlə yanaşmalıyıq və tarixi ədaləti də bərpa etməliyik.

Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, tariximiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olubdur. Mədəniyyət, ədəbiyyat, milli musiqi, ana dilimiz, tarixi keçmişimiz - biz bu sahələrə böyük diqqət göstərməliyik.

Ailə dəyərləri, bizim milli-mənəvi dəyərlərimiz, ənənələrimiz, bizim mədəniyyətimiz, tariximiz - bütün bunlar Azərbaycan xalqını qorumuşdur.

Tarixi-mədəni irsimizin qorunması üçün lazımi tədbirlər görüləcəkdir. Mədəniyyət infrastrukturuna əlavə vəsait ayrılacaqdır. Bütün teatr və muzeylər yüksək səviyyədə təmir olunmalıdır.

Bizim milli-mənəvi dəyərlərimiz Azərbaycan xalqını qorudu, möhkəmləndirdi. Biz buna sadiqik. Eyni zamanda, biz dünyaya da açığıq. Çünki hər bir mütərəqqi təcrübə Azərbaycanda da tətbiq olunmalıdır. Əlbəttə ki, bizim şəraitimizi nəzərə almaq şərtilə.

Bizim zəngin tarixi-mədəni irsimiz qorunub saxlanılır. Biz bu məsələyə də çox böyük diqqət göstərməliyik. Mən çox şadam ki, Şəki xanlarının sarayı artıq bərpa olunubdur. Bu, böyük hadisədir. Bu bölgədə - Şəkidə və ətraf rayonlarda Azərbaycan mədəniyyətinin çox dəyərli abidələri vardır. Azərbaycanda bütün tarixi abidələr qorunub saxlanılır. Azərbaycanda dözümlülük var, tolerantlıq var. Bütün millətlərin nümayəndələri, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Dünən mən Qax rayonunda gürcü kilsəsinə baş çəkdim. Bilirsiniz ki, Azərbaycanda rus kilsəsi fəaliyyət göstərir. Yəhudi sinaqoqu fəaliyyət göstərir. Bu yaxınlarda katolik kilsəsinin tikintisi başlanır. Azərbaycan bu baxımdan dünya üçün nümunə ola bilər və olmalıdır. Çünki Azərbaycanda milli, dini dözümlülük, tolerantlıq çox yüksək səviyyədədir.

Azərbaycan qadını ölkəmizdə sülhün və əmin-amanlığın qorunub saxlanması naminə əzmkarlıq göstərir, vətəndaş həmrəyliyi və dövlətçiliyimizin daha da gücləndirilməsi, milli-mənəvi dəyərlərin daim yaşadılması və mədəniyyətimizin inkişaf etdirilməsi üçün var qüvvəsini səfərbər edir.

Azərbaycan xalqının, bizim hamımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün, əlbəttə ki, ədəbiyyatımızın, mədəniyyətimizin böyük rolu olmuşdur. Əgər bunlar olmasaydı, əgər Azərbaycan xalqı öz tarixi köklərinə bağlı olmasaydı, bizim bugünkü taleyimiz başqa cür ola bilərdi. Məhz Azərbaycanın zəngin tarixi, mədəniyyəti, Azərbaycan dili bizi - Azərbaycan xalqının nümayəndələrini bu gün də öz keçmişimizə hörmətlə yanaşmağımıza imkan verir.

Azərbaycan Tarix Muzeyi indi əsaslı təmirə saxlanılıb və bu, çox yüksək səviyyədə görüləcəkdir. Dünyanın, Avropanın bu sahədə olan ən qabaqcıl mütəxəssisləri dəvət edilib və Hacı Zeynalabdin Tağıyevin evi onun tikdirdiyi kimi, bəlkə

ondan da gözəl bərpa olunacaqdır. Azərbaycanın bütün mədəniyyət ocaqları - muzeylər, teatrlar, digər infrastruktur bərpa olunmalıdır.

Azərbaycanın çox zəngin mədəniyyəti var və biz çox istəyirik ki, Fransa tamaşaçıları bu mədəniyyətlə tanış olsunlar, gələcəkdə belə sərgilərin sayı daha da artsın, insanlarımız bir-birinə daha da yaxın olsunlar.

Sammitdən sonra yaradılmış Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu sahədə aparıcı rol oynayaraq xüsusi dövlət proqramı çərçivəsində biliklərə əsaslanan iqtisadiyyata doğru müxtəlif layihələr gerçəkləşdirir.

...Azərbaycan bu gün informasiya texnologiyaları sahəsinin genişləndirilməsi üçün böyük imkanlara malikdir.

... İnformasiya texnologiyaları bu gün dünyada çox böyük əhəmiyyət daşıyan bir sahədir. Böyük potensialı, perspektivləri olan bir sahədir. Azərbaycan da burada geri qalmamalıdır. Biz bu sahədə də böyük addımlar atmalıyıq.

Bizim mədəniyyət ocaqlarımız yüksək səviyyədə olmalıdır. Bütün bu sahəyə diqqət gərək yüksək olsun.

...Azərbaycanın qabaqcıl mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin fəaliyyəti yüksək qiymətləndirilməlidir...

Milli ruh, bizim mənəvi dəyərlərimiz, tariximiz, torpağa bağlılığımız - budur bizim gələcəyimizi müəyyən edən amillər.

Ölkəmizin inkişafının möhkəmlənməsi üçün, xalqımızın daha da tərəqqisi üçün, bütövlükdə, bu humanitar sahəyə böyük diqqət göstərilməlidir... Kitablarımızın latın qrafikası ilə çap olunmasına qısa müddət ərzində nail olduq. Əlbəttə, bu, böyük hadisədir. Amma dövlət, hökumət başqa hansı tədbirləri görməlidir ki, biz bu işdə istədiyimizə daha da tezliklə nail olaq.

...Dünyada mövcud olan ən qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsi bizim qarşımızda duran əsas vəzifələrdən biridir.

Bu sahənin həm Azərbaycan üçün, həm də dünya üçün çox böyük perspektivləri var .

...Bizim gənc nəslimiz bilikli, dünyaya açıq olmalıdır, dünyada gedən proseslərə bələd olmalıdır, izləməlidir. Ən qabaqcıl texnologiyalar Azərbaycana gəlməlidir.

...Məhz bilik, məhz savad, yeni texnologiyalar - bunlar ölkəyə uğur, rifah gətirir, inkişaf, müasirlik gətirir.

...Hər bir ölkənin mənəvi, mədəni həyatı da ölkənin səviyyəsini göstərir. Bu sahəyə daha da böyük diqqət göstərilməlidir.

Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır-alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır. Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar Azərbaycan cəmiyyətinin aparıcı təbəqəsidir, cəmiyyətin elitasıdır.